# MÜBARİZ KEŞİKDƏ

26 sentyabr 2019-cu il
Cümə axşamı
№ 37 (3452)
1933-cü ildən çıxır
www.mk.mia.gov.az
Qiyməti 40 qəpik
AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI




**Polis, daxili işlər orqanları Azərbaycan dövlətinin əsas sütunlarından, dayaqlarından biridir. Polis Azərbaycan dövlətinə, dövlətçiliyinə xidmət edir. Azərbaycanın dövlət müstəqilliyinə xidmət edir. Hər bir Azərbaycan vətəndaşına xidmət edir.**

# PREZİDENT İLHAM ƏLİYEV "ƏSRİN MÜQAVİLƏSİ"nin 25 İLLİYİ VƏ NEFTÇİLƏR GÜNÜ MÜNASİBƏTİLƏ KEÇİRİLƏN MƏRASİMDƏ İŞTİRAK EDİB

Sentyabrın 20-də Heydər Əliyev Mərkəzində "Əsrin müqaviləsi"nin 25 illiyi və Neftçilər Günü münasibətilə mərasim keçirilib. Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə çıxış edib.




Qeyd olunub ki, "Əsrin kontraktı"nın imzalanması tarixi hadisədir. Bu kontraktın faydasını bu gün Azərbaycan dövləti, Azərbaycan xalqı görür. Təsəvvür etmək çətindir ki, əgər "Əsrin kontraktı" imzalanmasaydı, Azərbaycan o vaxt nəyin hesabına öz iqtisadi inkişafını təmin edə bilərdi. Biz nəyin hesabına uğurla inkişaf edə bilərdik. "Əsrin kontraktı"nın müstəqil tariximizdə xüsusi yeri, xüsusi rolu var. Bu kontraktın imzalanması asan məsələ deyildi. Uzun müddət ərzində aparılan danışıqlar nəticə vermirdi. Hər iki tərəf çalışırdı ki, özü üçün daha əlverişli və məqbul şərtləri əldə etsin. Azərbaycan dövləti maraqlar balansını tapararaq ən məqbul şərtlərlə özləri üçün bu kontraktı imzaladı və ölkəmizin maraqları da tam şəkildə təmin edildi. Bu gün kontraktın icrasının nəticəsi olan yeniləşən, müasirləşən, güclənən Azərbaycan bu sözlərimin əyani sübutudur.

Azərbaycan Prezidenti xüsusi vurğulayıb ki, "Əsrin kontraktı" ulu öndər Heydər Əliyevin neft strategiyasının tərkib hissəsidir, onun başlanğıcıdır. Məhz Heydər Əliyevin cəsarəti, müdrikliyi sayəsində Azərbaycan özünü dünyaya təqdim edə bildi. Tarixdə ilk dəfə xarici şirkətlər Xəzər dənizində neft-qaz yataqlarının işlənilməsində iştirak etməyə başladılar. "Əsrin kontraktı"nın imzalanması nəticəsində on minlərlə yeni iş yeri yaradılmışdır. Azərbaycanda minlərlə şirkət bu kontraktın icrasında podratçı kimi fəaliyyət göstərir. O vaxt Cənab Prezident bu möhtəşəm tarixi hadisənin müstəqil Azərbaycanın bu günü və gələcəyi üçün yaratdığı imkanlardan, əldə olunan nəticələrdən ətraflı danışıb. Bildirib ki, "Əsrin kontraktı"nın ölkəmiz üçün, xalqımız üçün çoxşaxəli faydası var. Onlardan biri də kadr hazırlığıdır. Neft, qaz tükənən sərvətlərdir. İntellektual potensial, bilik, savad, səriştə, təcrübə isə dəyişməz sərvətdir. Bu təlimlərdən keçmiş Azərbaycan vətəndaşları, mütəxəssisləri bu gün çox böyük işlər görürlər, ölkəmizin inkişafına böyük töhfə verirlər.

Çıxışının sonunda dövlətimizin başçısı İlham Əliyev deyib:

-O illərdə ölkəmizin yarısı işıqsız qalırdı. Bakı şəhərinin özündə işıq çatışmırdı. Hətta bəzi hallarda saat 12-də televiziya kanalları da fəaliyyətini dayandırırdı ki, vətəndaşlar elektrikdən az istifadə etsinlər. Çünki elektrik çatışmırdı. Artıq 3 min meqavata yaxın yeni generasiya gücləri yaradılıb və biz nəinki özümüzü təmin edirik, ixrac da edirik.

Yollar bərbad vəziyyətdə idi. Davos Dünya İqtisadi Forumunun hesablamalarına əsasən, bu gün Azərbaycan yolları keyfiyyətinə görə dünya miqyasında 34-cü yerdədir. İçməli su böyük problem idi. Bu gün əhalinin 75 faizi dayanıqlı içməli su ilə təmin edilir və bu proses davam etdirilir.

Məcburi köçkünlər üçün yüzdən çox şəhərcik salındı. Çadır şəhərciklərini biz hələ 2007-ci ildə ləğv etdik. Nəyin hesabına? Neft Fondunun hesabına. Neft Fonduna vəsait haradan gəlir? "Əsrin kontraktı"nın icrasından. Biz yüz minlərlə köçkünə yeni evlər verdik, yeni mənzillər təqdim etdik. Şəhid ailələrinə, müharibə veteranlarına edilən güzəştlər, verilən müavinətlər, mənzillər, minik avtomobilləri. Yəni, "Əsrin kontraktı"nın çox böyük faydası var və biz vəsaitdən düzgün istifadə etdik. Neft Fondunun gəlirlərindən yalnız büdcə çərçivəsində istifadə etmək mümkündür. Yəni, Azərbaycan vətəndaşları Milli Məclisdə öz təmsilçiləri vasitəsilə bu vəsaitin bölgüsündə iştirak edirlər.

Sosial infrastruktur tamamilə yenidən quruldu, 3200-dən çox məktəb, 640-dan çox xəstəxana tikildi və təmir olundu, idman qurğuları inşa edildi. Azərbaycan kosmik dövlətə çevrildi. Bizim 3 peykimiz var. Biz gəlirlərdən istifadə edərək dövlət borcumuzu aşağı səviyyədə saxlayırıq. Bu, ümumi daxili məhsulun cəmi 19 faizini təşkil edir. Bizim valyuta ehtiyatlarımız xarici borcumuzdan beş dəfə artıqdır. Bu, hansı ölkələrdə ola bilər? Var, amma bu ölkələrin sayı o qədər də çox deyil...

Sonra ABŞ-ın Dövlət katibi Maykl Pompeonun, Birləşmiş Krallığın Beynəlxalq Ticarət Departamentinin Beynəlxalq Ticarət üzrə Dövlət katibi Yelizaveta Trussun, Xarici və Birlik məsələləri ofisinin Avropa və Amerika üzrə naziri Kristofer Pinçerin məktubları oxunub.

Daha sonra BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Counz və Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti Xoşbəxt Yusifzadə çıxış ediblər.

Prezident İlham Əliyevə "Əsrin müqaviləsi"nin 25 illiyi münasibətilə "Azəri-Çıraq-Günəşli" yatağını simvolizə edən markaların toplusunu hədiyyə edilib.

***Sentyabrın 25-də Bakı Nəqliyyat Agentliyinin "Koroğlu" Nəqliyyat Mübadilə Mərkəzinin açılışı olub. Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışda iştirak ediblər.***

**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva sentyabrın 23-də Təhsilin Qiymətləndirilməsi üzrə Beynəlxalq Assosiasiyanın 45-ci illik konfransının açılışı münasibətilə iştirakçıları təbrik edib.**

**Ölkəmizin rəhbəri sentyabrın 17-də Gürcüstanın İqtisadiyyat və Davamlı İnkişaf naziri xanım Natiya Turnavanı qəbul edib.**

❖❖❖❖❖

***Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 18-də Belarus Respublikası Təhlükəsizlik Şurasının dövlət katibi Stanislav Zasın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***

❖❖❖❖❖

**Dövlətimizin başçısı sentyabrın 19-da Ümumçin Xalq Nümayəndələri Yığıncağı Daimi Komitəsinin sədri Li Canşunun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

❖❖❖❖❖

***Ölkəmizin rəhbəri İlham Əliyev sentyabrın 19-da Krallıq elan edilməsi günü münasibətilə İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Əlahəzrət Salman bin Əbdüləziz Al Səuda təbrik məktubu göndərib.***

❖❖❖❖❖

**Sentyabrın 19-da dövlətimizin başçısı Azərbaycan Respublikasının neft sənayesi işçilərinin mükafatlandırılması haqqında sərəncamlar imzalayıb.**

❖❖❖❖❖

***Sentyabrın 20-də Azərbaycan Prezidenti İlham Əliyev "Əsrin müqaviləsi"nin 25 illiyi və Neftçilər Günü münasibətilə Azərbaycanın neft sənayesi işçilərini təbrik edib.***

❖❖❖❖❖

**Dövlətimizin başçısı sentyabrın 20-də Mehriban Natiq qızı İmanovanın Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun icraçı direktoru təyin edilməsi haqqında sərəncam imzalayıb.**

❖❖❖❖❖

***Sentyabrın 21-də dövlətimizin başçısı Azərbaycan Respublikasının ictimai-siyasi həyatında fəal iştirakına görə Musa Şaban oğlu Şəkiliyevin 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.***

❖❖❖❖❖

**Ölkəmizin rəhbəri sentyabrın 21-də Azərbaycan Respublikasının ictimai-siyasi həyatında səmərəli fəaliyyətinə görə Xələf Alı oğlu Xələfovun "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.**

❖❖❖❖❖

***Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 24-də Xorvatiya, Litva və Fransa respublikalarının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfirləri Branko Zebiçin, Eqidius Navikasın, Zakari Qrosun etimadnamələrini qəbul edib.***

# DAXİLİ İŞLƏR NAZİRLİYİ MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən, mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov sentyabrın 25-də Lənkəran Şəhər-Rayon Polis Şöbəsində daxili işlər orqanlarının fəaliyyəti və səlahiyyəti ilə bağlı məsələlərlə əlaqədar növbəti qəbul keçirib.

Qəbulda Lənkəran, Cəlilabad, Masallı, Astara, Yardımlı, Lerik şəhər və rayonlarından müraciət edən 42 nəfər iştirak edib.

Vətəndaşları şəxsən dinləyən nazir onları narahat edən problemlərin operativ şəkildə, mövcud qanunvericiliyə uyğun həlli üçün aidiyyatı baş idarə və xidmət rəislərinə konkret tapşırıqlar verib. Müraciətlərin böyük əksəriyyəti elə yerindəcə öz həllini tapıb.

Tədbirdə iştirak edənlər onlara göstərilən diqqət və qayğıya, yerlərdə davamlı olaraq vətəndaşların qəbulunun təşkilinə, dövlət qurumlarının rəhbərləri tərəfindən ərizə və müraciətlərinə operativ yanaşılmasına, həssas münasibətə görə ölkə Prezidentinə minnətdarlıq ediblər.

*25 sentyabr 2019-cu il.*

# DAXİLİ İŞLƏR NAZİRLİYİ MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

**Sentyabrın 19-da Daxili İşlər Nazirliyində bu il Polis Akademiyasını bitirmiş, Nəqliyyatda Baş Polis İdarəsində, Sumqayıt Şəhər və Abşeron Rayon Polis idarələrində sıravi və kiçik rəis heyəti vəzifələrində xidmət edən əməkdaşların həmin orqanlarda vakant olan zabit yerlərinə təyin edilmələrinə həsr olunmuş tədbir keçirilib.**



Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov təyinatın aşkarlıq və ədalət prinsipləri əsasında gerçəkləşdiyini bildirib. Nazir qeyd edib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ölkəmizin parlaq gələcəyinin yüksək intellektə, geniş dünyagörüşünə, dərin biliyə və işgüzarlığa malik, mükəmməl təhsil almış, dövlətçiliyə sadiq, vətənpərvər gənclərdən asılı olduğunu dəfələrlə vurğulayıb.



Belə yüksək mənəvi və iş keyfiyyətlərinə malik şəxslərin dövlət idarəçiliyində, o cümlədən daxili işlər orqanlarında xidmətdə irəli çəkilmələri, onların ölkəmizin ictimai-siyasi həyatında daha geniş şəkildə təmsil olunmaları üçün zəruri addımların atıldığını deyən nazir hazırki tədbirin də göstərilən sahədə həyata keçirilən məqsədyönlü siyasətin növbəti təzahürü olduğunu vurğulayıb.

Baş Kadrlar İdarəsinin rəisi, polis general-mayoru Rafiq Abbasov bu il Polis Akademiyasının qiyabi şöbəsini bitirənlərin artıq 47-nin təyinatının həyata keçirildiyini xatırladıb, eyni məqsədlə növbəti dəfə nazirliyə 10 məzunun dəvət edildiyini bildirib və namizədlərin siyahısını elan edib.

Daha sonra iddiaçılar orta rəis heyətinə aid vakant olan vəzifələrin qeyd edildiyi xüsusi zərfləri çəkiblər.

Onların nəzərinə çatdırılıb ki, püşkatmada iştirak etmiş bütün əməkdaşlar Daxili İşlər nazirinin müvafiq əmrləri ilə «polis leytenantı» xüsusi rütbəsi verilməklə zabit vəzifələrinə təyin olunurlar.

Tədbirə yekun vuran general-polkovnik Vilayət Eyvazov gənc əməkdaşları təbrik edərək çətin və şərəfli xidmətlərində uğurlar arzulayıb, polis adını uca tutmalarını, daim bilik və təcrübələrini artırmalarını, öz üzərlərində işləmələrini, ən müasir informasiya texnologiyalarının sirlərinə bələd olmalarını və həmişə vətəndaşların müraciətlərinə həssaslıqla və operativ şəkildə yanaşmalarını tövsiyə edib.

---

# BİZ ÖYRƏNİRİK Kİ, ÖYRƏDƏK

**Oktyabrın 1-i, Beynəlxalq Ahıllar Günü ölkəmizdə 1993-cü ildən başlayaraq qeyd olunur. Məqsəd ahıl insanların sosial problemləri ilə tanış olmaq, ehtiyaclarını müəyyənləşdirərək imkanlı müəssisələr, təşkilatlar və qeyri-hökumət təşkilatları ilə birlikdə əməli tədbirlər görməkdən ibarətdir. Ən başlıcası, ahıllara onları sevdiklərimizi həmin gün daha da çox hiss etdirmək, bu məmnunluğu onlara doya-doya yaşatmaqdır.**

Bu əlamətdar gün ərəfəsində DİN Veteranlar Şurasının sədri, istefada olan polis polkovniki Fərhad Süleymanovla həmsöhbət oldum. Fərhad müəllim bildirdi ki, daxili işlər orqanlarının qarşısında duran vəzifələrin yerinə yetirilməsi, polis-vətəndaş münasibətlərinin daha da möhkəmləndirilməsi, ictimai təhlükəsizliyin təmini, cinayətlərin profilaktikası məqsədi ilə veteranlar vaxtilə çalışdıqları ərazi orqanları və nizami hissələrdə daha sıx təşkilatlanaraq fəallıq göstərirlər. Veteranlarımız şəxsi heyətin xidməti və peşə hazırlığında gənc əməkdaşlara əməli kömək göstərirlər. Yeniyetmə və gənclər arasında anti-narkotik təbliğatın gücləndirilməsi, dini radikalizmə qarşı mübarizə, azyaşlılar arasında erkən nikah və intihar hallarının qarşısının alınması məqsədi ilə aidiyyatı xidmət əməkdaşları ilə birgə kollektivlərdə, təhsil müəssisələrində görüşlər keçirərək hüquqi mövzularda maarifləndirmə işləri aparırlar. "Gənclərin milli vətənpərvərlik ruhunda tərbiyəsi" mövzusunda tədris müəssisələrinin müəllim, şagird və dinləyicilərinin, şəhid polis ailə üzvlərinin, hərbi qulluqçuların iştirakı ilə keçirilən tədbirlər ictimaiyyət tərəfindən də bəyənilir.

F.Süleymanov daha sonra dedi ki, hər kəs öz işinə vicdanla yanaşmalı, Vətənini sevməli, ona layiqli övlad olmağa çalışmalıdır. Bu gün ölkə və DİN rəhbərliyi tərəfindən gənclər üçün hər cür şərait yaradılıb. Onlar da öz üzərlərində işləməli, dünyagörüşünün və peşəkarlığının artırılmasına çalışmalı, bu yolda ağsaqqal həmkarlarının, ümumiyyətlə, zəngin həyat təcrübəsi olan ahıl insanların təcrübəsindən, tövsiyə və nümunələrindən yararlanmalıdırlar.



Bütün çətinliklərə baxmayaraq, hər zaman işlərinə məsuliyyətlə yanaşan, hörmətə layiq ömür yaşayan ahıllarımızın həyat yolu bizim üçün örnəkdir, məktəbdir.

Ömrünün ən gözəl illərini daxili işlər orqanlarında xidmətə həsr edib, saçlarını da bu yolda ağardan veteranlarımızın təqaüdə çıxdıqdan sonra da əlləri işdən soyumur.

100-ün iki addımlığında, iki cəbhənin döyüşçüsü olan polis veteranlarımız Müseyib İlyasovun, Kamil Məmmədovun, Əlikişi Cümşüdovun, Daşdəmir Paşayevin, Əzim İbrahimovun və adını sadalamadığımız, bir çox ömrünü polis kimi çətin və şərəfli peşəyə həsr etmiş həmkarlarımızın həyat yolu bizim üçün həm də qürur yeridir.

***Bayramınız mübarək, əziz ahıllarımız!***

*Aytəkin Nəcəfova,*
*polis polkovnik-leytenantı*

---

# YANAN DA BİZ, "YAMAN" DA?

**Bu gün informasiya amili insanların yaşam tərzinin bir hissəsinə çevrilib. Sosial şəbəkələrdən istifadə edənlər cəmiyyətdə ictimai maraq doğuran hadisələri, qarşılaşdıqları situasiyaları, bəziləri də öz yaşam tərzini telefonunun yaddaşına həkk edir, sonra həmin görüntüləri müxtəlif adamlarla bölüşürlər. Bu, hər kəsin şəxsi düşüncəsi, şəxsi işidir. Ancaq bir çox hallarda təəssüfedici məqamlarla rastlaşırsan.**





Söhbət sosial şəbəkələrdə daxili işlər orqanlarının fədakar xidmətinə, adına, nüfuzuna xələl gətirmək istəyənlərdən, bilərəkdən sifarişlə yazılan rəylərdən, bildirilən fikirlərdən gedir.

Maraqlısı odur ki, xalqını, vətəndaşını hər cür qada-bələdan qoruyan polislərə qarşı bəzilərində bu aqressiya, bu neqativ fikirlər haradan qaynaqlanır? Axı, daxili işlər orqanlarının əməkdaşları gecə-gündüz, qışın soyuğunda, yayın istisində şirin yuxusuna haram qataraq bizləri, sizləri cinayətkarlardan, ümumilikdə bütün növ hüquqazidd əməllərdən qoruyur. Bəs, onda niyə..?

Görmüşük ki, ədalətli adamlar neqativ hallarla üzləşəndə də, xeyirxah, nəcib əməllər görəndə də fikir bildirərlər, dəyərli məsləhətlər verib hamını yaxşılığa səsləyərlər. Amma bu sifarişli "pionerlər" nə üçünsə yağışdan sonra çıxan zərərli "göbələk"lər kimi ara-sıra görünür, asayiş qoruyucularının ünvanına atmaca atıb suyu bulandırmağa, cəmiyyətdə polis haqqında mənfi fikir formalaşdırmağa çalışırlar. Deməli, hardasa, kiminsə quyruğunu tapdamışıq...

Kiçik bir araşdırma aparanda ortaya çıxan mənzərə acı gülüş doğurur. Bunlar, əsasən, cinayət törətmişlərin yaxınları, ya da qanunları pozub özünə haqq qazandırmaq istəyənlərdir. Hətta bunu bəzən həyasızcasına etməkdən belə çəkinmirlər.

Nə gizlədim, ən çox da rastlaşdığım hal məhz Gəncə hadisələri zamanı iki polis əməkdaşının qətlə yetirənlərin qohum-əqrabası, yaxınlarıdır. Bax, bu məqam həqiqətən düşündürücü, hətta utancvericidir.

Belədə yaxşı deyiblər ki, adımı sənə qoyum, səni də yana-yana...

*Teymur Əlizadə,*
*polis kapitanı*

---

# TƏDBİR GÖRÜLDÜ

Sosial şəbəkələrdə bir nəfərin narkotikdən istifadənin açıq təbliğ etməsini əks etdirən videogörüntü yayılmışdır.

Məsələ ictimai rezonans doğurduğundan polis əməkdaşları tərəfindən müvafiq tədbirlər həyata keçirilmişdir. Nəticədə narkotiki təbliğ edənin Rafiq Qulizadə olması müəyyən edilmiş və o, saxlanılmışdır. Onun üzərində aparılmış şəxsi axtarış zamanı 0,335 qram marixuana aşkar edilmişdir.

Faktla əlaqədar toplanmış materiallar hüquqi qiymət verilməsi üçün məhkəməyə göndərilmişdir. O, məhkəmənin qərarı ilə 29 sutka müddətində inzibati qaydada həbs edilmişdir.

---

# DİN-in NÜMAYƏNDƏ HEYƏTİ PEKİNDƏ SEMİNARDA İŞTİRAK EDİB

**Daxili İşlər Nazirliyinin kriminalistika xidmətinin əməkdaşları Çin Xalq Respublikasının İctimai Təhlükəsizlik Nazirliyinin təşkilatçılığı ilə bu yaxınlarda Pekin şəhərində «Kriminalistika üsulları 2019» mövzusunda keçirilmiş seminarda iştirak ediblər.**

DİN-in Kriminalistik Tədqiqatlar İdarəsinin rəisi, polis polkovniki Gündüz Sadıxovun rəhbərlik etdiyi nümayəndə heyəti seminar çərçivəsində Çin Xalq Respublikasının İctimai Təhlükəsizlik Nazirliyinin Maddi sübutların ekspertizası mərkəzinin DNT, Narkotik və psixotrop, Toksioloji, Foto-Video görüntülərin, Daktiloskopik, Ballistik, Qida məhsullarının və Ağır metalları ekspertizaları laboratoriyalarında olub, həmin laboratoriyalarda ekspertizaların ən müasir üsul və metodlarla aparılması ilə yaxından tanış olublar.

Nümayəndə heyəti Şandun əyalətinin Deçjou şəhərində Xalq Polisinin mərkəzi təlim bazasının rəhbərliyi ilə görüşüb, bazanın infrastrukturu ilə tanış olub.

Seminar çərçivəsində ÇXR-in İctimai Təhlükəsizlik Nazirliyinin Maddi sübutların ekspertizası Mərkəzinin rəisi Çen Sun ilə görüş keçirilib. Görüşdə hər iki tərəfin məhkəmə ekspertizası sahəsində tətbiq edilən yeniliklərlə tanışlığı həyata keçirilib, təcrübə mübadiləsi, habelə qarşılıqlı əlaqələrin möhkəmləndirilməsi imkanları araşdırılıb.

---

**Böyük Britaniya vətəndaşı Parthi Sankar Daxili İşlər Nazirliyinə təşəkkür məktubu ünvanlayıb. O qeyd edir ki, 2018-ci ilin aprel ayında Bakı şəhərində olarkən cinayətlə üzləşib.**

P.Sankar bu barədə polisə etdiyi müraciətinə dərhal baxılaraq müvafiq araşdırma aparıldığını, qısa müddətdə həmin cinayət əməlini törədən şəxsin saxlanıldığını və ona dəymiş maddi ziyanın tam ödətdirildiyini qeyd edir.

# BÖYÜK BRİTANİYA VƏTƏNDAŞI DAXİLİ İŞLƏR NAZİRLİYİNƏ TƏŞƏKKÜR MƏKTUBU ÜNVANLAYIB

Müəllifdə xoş təəssürat yaradan əsas məqamlardan biri öz ölkəsinə qayıtdıqdan sonra da polis əməkdaşlarının onunla əlaqə saxlayaraq, araşdırmanın gedişatı ilə bağlı məlumatlandırması olub.

Sankar belə bir hadisənin baş verməsindən təəssüflənir, lakin nəticədə Azərbaycan Polisinin müraciətlərə necə həssas yanaşmasının, operativliyinin, yüksək peşəkarlığının şahidi olduğunu məmnunluqla bildirir.

Parthi Sankar bu məsələdə ona göstərilən yüksək diqqətdən, polis əməkdaşlarının operativliyindən, araşdırmanın nəticəsindən razı qaldığını vurğulayır və bütün bunlara görə DİN rəhbərliyinə təşəkkür edir.

---

# FAKTLAR AŞKAR EDİLİB

**Baş İctimai Təhlükəsizlik İdarəsi Ekologiya və Təbii Sərvətlər Nazirliyinin müvafiq qurumları ilə birgə Bakı şəhəri ərazisində sanitariya-gigiyena qaydalarının pozulması hallarının qarşısının alınması məqsədilə mütəmadi tədbirlər keçirir.**

Növbəti belə tədbir sentyabrın 19-da Qaradağ rayonu ərazisində keçirilib.

Reyd zamanı Puta qəsəbəsi ərazisində yerləşən "Karvan-L" MMC-nin nəzdində təkrar emal və utilizasiya sexinə aid olan zəhərli maddələrin yandırılması və qalaqlanması faktı aşkar edilib.

Qeyd olunan sexin müdiri R.Süleymanov İnzibati Xətalar Məcəlləsinin 271-ci (sənaye və məişət tullantılarının qalaqlanması və yandırılması zamanı ətraf mühitin mühafizəsi tələblərinə əməl edilməməsi) maddəsinin tələblərini pozduğuna görə barəsində protokol tərtib edilmişdir.

Bu istiqamətdə tədbirlər davam etdirilir.

*Natiq Cavadov,*
*polis mayoru*

# ANTİ-DÖVLƏT MÖVQEYİ TUTANLARIN YOLU

**Bu material sentyabrın 21-də Real TV-nin "Mirşahinin vaxtında" efirə gedib. Qəhrəmanlarımız, xəyanətlər və xəyanətkarlar haqqında ibrətamiz fikirlər, faktlar yaddaş üçün dəyərlidir. Buyurun, baxmamısınızsa, oxuyun...**

İndi danışmaq çox asandır. Artıq problem həllini tapıb. Terrorçuların bir qrupu məhv edilib. Onların dəstəkçiləri yaxalanıb. Ağır və yüngül cəzalananlar var. Amma o günlər Gəncədə müdhiş bir gərginlik var idi. Şəhərin rəhbərinə ağır xəsarət yetirilmişdi. İki polis zabiti öldürülmüşdü. Bir polis zabiti ağır yaralanmışdı. Azərbaycanın bütün rayonlarının icra başçılarına gizli bir edam cəzası elan olunmuşdu. Hüquq-mühafizə orqanları sərt tədbirlər görməsəydi, bir az ovcuyumşaqlığa rəvac versəydi vəziyyət daha dramatik, daha faciəvi şəkil alacaqdı. İndi biz çox sakit və soyuqqanlı şəkildə, özünü heç nə olmayıbmış kimi aparan maraqlı valideynlərin aqressiv bəyanatlarının şahidi oluruq.

Neyləyiblər ki? Meydana giriblər də? Nə var ki, burda, elə mən də girərdim? Meydana girməyə görə adama 6 il, 8 il iş verərlər? kimi özünü avamlığa vurmuş suallar verənlərlə rastlaşırıq.

Övladlarına azadlıq tələb edən valideynlər artıq çoxdandır ki, siyasi bəyanatlar verirlər. Əlbəttə, hər bir ata-ana üçün övladı məsumdur, günahsızdır. Amma bağışlayın məni, o hökm dövləti təhdid edən, cinayətə haqq qazandıran analar barədə deyil. Valideynlərin hər bir halda övladının yanında olmaq arzusunu, iradəsini anlamaq mümkündür. Amma onların hüquq və qanundan ciddi anlayışsızlıqları var. Bəlkə, doğrudan da elə bilirlər ki, meydanda olmaq cinayət deyil. Amma baxır hansı meydanda və hansı halda. 1995-ci ilin martında Xüsusi Təyinatlı Dəstənin zərərsizləşdirilməsi zamanında da fərd olaraq qətldə iştirak edənlərin sayı çox deyildi. Amma həbs edilənlərin sayı dəfələrlə artıq oldu. 1993-cü ildə Əlikram Hümbətov separatizmlə döyüşdə də dəstə üzvləri həbs edildilər və uzun müddətə azadlıqdan məhrum olundular. Bu gün də qanun eyni qiyafədə və kəsərdədir. Bəli, polis zabitlərini bir nəfər qətlə yetirib. Amma onun tərəfdarları, əlbirləri, işbirləri, qaçıb aradan çıxmasına kömək edənləri çox olublar. Həbs olunmuşlar, hökm oxunmuşlar isə futbol oyununda oturacaq sındırıb meydana petart atdıqlarına görə məsuliyyətə cəlb edilməyiblər. Onlar dövlətə terror edən birinin çağırışına tabe olub, onunla birlikdə fəaliyyət göstəriblər.



Hörmətli tamaşaçılar, siz Rəşad Böyükkişiyevi tanıyırsızmı? Onun çıxışlarını eşitmisizmi? Əli Kərimli başda olmaqla qaragüruhla məsələ aydındır. Onlar cinayətə cəlb edilmiş gəncləri öz "bufer zonaları" statusunda qoruyurlar. Ona görə qoruyurlar ki, 2018-ci ilin iyul terrorunda, həmin hadisələr zamanı özləri də onlarla birlikdə olublar. Onlara təbliğati dəstək veriblər. Əli Kərimli də, Sevinc Osmanqızı da, Qənimət Zahid... və başqaları da. Anti-dövlət mövqe tutan bu insanların geriyə yolu yoxdur. Onlar, əslində, özlərini müdafiə edirlər. Amma siz, şəxsən siz, hər biriniz Rəşadın çıxışlarından xəbərdarsızmı? Bu adamın manyakal müraciətlərini eşitmisizmi? Bu standart terrorist müraciətidir, mənim əzizlərim!

Çoxdan idi ki, müəyyən səbəblərdən bu müraciəti göstərmək istəmirdim. Amma bir neçə gün əvvəl iyul terroruyla bu və ya digər dərəcədə bağlılığı olan gənclərdən birinin valideyninin çıxışına qulaq asdım və başa düşdüm ki, qadın doğrudan, deyəsən, cinayətin mahiyyətini, miqyasını anlamır.

İndi sizə çox qısa bir parça göstərəcəm. Bu həmin o Rəşaddır. Əli Kərimli güruhunun tez-tez az qala siyasi idol, Məhəmməd Əmin Rəsulzadənin işıqlı kölgəsi kimi təqdim etdiyi Böyükkişiyev Rəşad. Müraciətdən çox qısa bir fraqmentdir. Diqqətlə baxaq və başa düşək ki, həmin gənclər kimin yanında olub o günlər. Kimin gizlənməsinə, qaçıb aradan çıxmasına kömək ediblər. Bu adamın intonasiyasından anlayacaqsız ki, dövlətə necə nifrət edir. Ağalarının əmrini yerinə yetirmək üçün necə amadədir. Soyuqqanlı baxmağa çalışaq. Obyektiv olmağa çalışaq:

Bir də təqdim edirəm: **Rəşad Böyükkişiyev. Terrorçu.** Bu müraciəti o Gəncə Şəhər İcra Hakimiyyəti qarşısındakı aksiyaya getməzdən əvvəl edib və polis zabitlərini qətlə yetirib.

Və bu müraciətdən sonra o niyyətini həyata keçirir. Sonrası necə, bilirsiz? Yox yəqin ki, istintaq sirri ola bildiyindən bəzi mətləbləri açmıram. Amma məndə olan bəzi yazışmaları oxuyacam. Buyurun, tanış olun.

Rəşad Böyükkişiyev artıq öz mənhus niyyətini həyata keçirib. İki polis zabitini qətlə yetirib, birini isə ağır yaralayıb. Baxın, adam təəssüratlarını necə bölüşür:

**10 iyul 2018-ci il:**

***"Sən niyə gəlirsən ki, sənin başına dönüm? Onun yeri hardadı, neçə dənə itləri vurmuşam mən. Mənə bir dənə onun yerini deginən, onu götürüm, o mənə lazımdı!" "Mehribangilə də deginən. Vaqifgil-zad da yığışsınlar getsinlər kəndə hamısı. Denən, yığışsınlar getsinlər, kənddə qalsınlar bir-iki üç gün"***

***"Hə, neçə dənə itlərə soxdum ə. Bərk soxdume öz də desəm. Öldürdüm e."***

***Onun yazışdığı şəxsin cavabı belədir:***

***"Ə, bilirəm Həci! Qıraxdan çəkib quyubdu yutub-a. Tam düşmürsünüz, amma qıraxdan düşürsünüz. O qara paltarda olan sən döyülsən ki, ə, böyürdən xançal çıxardır, şappaşap soxur"***

***Rəşad:***

***"Hə... uje youtuba qoyublar?***

***Cavab:***

***"Hə youtuba qoyublar, Həci. Xəncəl böyürdən çıxanda hamısı da düşübdü, prosto yaxşı ki, kürəyin kameraya düşübdü. Üzün düşməyib kameraya. Ə, görüblər səni uşaqlar. O Xəyal-zad, hamısı görüblər. Əligilnən danışıblar. Əli də deyib ə, bilmirəm, o buralarda yoxdur!***"

Məqsədim bütün səs yazılarının stenoqramını çatdırmaq deyil. Sadəcə, onu demək istəyirəm ki, bu səs yazıları mütəşəkkil bir cinayət əməlinin həyata keçirildiyini tam sübuta yetirir. Və... hörmətli məhkum, məhbus valideynləri üçün nə qədər ağır olsa da deyim ki, səs yazıları arasında, yəni Rəşada cavab verənlər arasında onların məsum hesab etdiyi bəzi balaların da səsi var. Ona görə də xahiş etmək istərdim ki, özlərini soyuqqanlı olmağa vadar etsinlər. Uzun müddət gözləməyə hazırlaşsınlar. Heç kəsi təhqir etmədən, lənətləmədən. Sakitləşmək, doğmalarının həbsxanada islah olunmasına yardım etmək haqqında düşünsünlər. Elə etmək lazımdır ki, bu uşaqlar həbsdən çıxandan sonra Fuad Qəhrəmanlı sindromu yaşamasınlar, gedib evdə yaxınlarının dizlərini, barmaqlarını sındırmasınlar.



Hörmətli tamaşaçılar, məhkum valideynlərinin ifrat aqressiyası, yersiz çıxışları ona gətirib-çıxardı ki, iyul terrorunun qurbanlarının ailələri də gözləmə mövqeyindən çıxdılar. Bu həftə onlar ilk dəfə olaraq, dövlətdən tələb etdilər ki, şəhid polis zabitlərinin qanının yerdə qalmasına imkan verməsinlər. Haqlıdırlar. Çünki həbsxanaya düşənlər bir müddət sonra azadlığa çıxacaqlar və ailələrinin içinə qayıdacaqlar. Amma onların dövlət yolunda canını fəda edən həyat yoldaşları, ata və qardaşları bir daha dönməyəcəklər. Şəhid polis ailələrinin müraciəti yayılan kimi xüsusi müxbirimizi Gəncəyə ezam etdik.



Neçə vaxtdır ki, bu və başsız qalmış o biri ailə dözür. Hövsələsinə, səbrinə, abır-həyasına qısılıb dözür. Amma iyul terroruna ictimai çıxışlarla dəstək verən gənclərin valideynləri bəlkə elə anlayırlar ki, polislər öldürülməliydi. Əks-təqdirdə günahkarların cəzalandırılmasını elə ilk olaraq, onlar tələb etməliydilər. Axı məntiq də diqtə edir ki, sən balanı həbsə salanlara cəza istəyəsən. Aydın məsələdir ki, polis zabitlərinin qatili burada bir, ya iki adam deyil. Qılıncı Rəşad qaldırsa da, qatil həm də qara güruhdur. Ona görə də söhbət bir, ya iki nəfəri cəzalandırmaqdan yox, güruhu cəzalandırmaqdan getməlidir. Həm də cəza yalnız həmin hərəkəti edənləri yox, gələcəkdə belə yanlış addımları planlaşdıranları çəkindirmək məqsədi güdür.

Ola bilər ki, hissə qapılıram. Prosesin içindən heç cür çıxa bilmədiyim üçün belə düşünürəm. Amma bu günlərdə Bakıda yol polisini təhqir edən adi sürücü belə məndə elə təəssürat yaradır ki, onun əməli asayiş keşikçisini qəsdən gözdən salmaq məqsədi güdür və Gəncədə polisə əl qaldıranlarla az qala eyni daxili vəziyyəti daşıyır. Buna görə də polisdən daha sərt, daha güzəştsiz, qanunun ən amansız formatında davranış tələb etmək istəyirəm. Buna görə də həmin polis əməkdaşının ərizə yazıb təqaüdə getməsini həm də özünəməxsus jest hesab edirəm. Əks-təqdirdə də qovulmalıdır. Bilirsiz, niyə? Paqonlarını hansısa xəstə sürücüyə qapazaltı verdiyinə görə.

Biz çox həssas bir dövrdə yaşayırıq. Dövlətin taleyinin hər bir vətəndaşla indiki qədər bağlı olduğu bir vaxt yadıma gəlmir. Bəzən, sadəcə, maraqlı görünmək naminə dövləti risk altına qoyduğumuzun fərqində olmuruq. Elə şeylər var ki, bəlkə də xırdalıqdır və burada adi məntiqlə belə opponenti alt-üst etmək olur.

Məsələn, qaragüruhbaşı Kərimli Prezidentin köməkçisi Əli Həsənovun təhsil ilinin başlanması ilə bağlı təbrik mətnində guya səhv tapır.

Əli Həsənov yazır: "Ümid edirəm ki, şagirdlərimizin içərisindən gələcəyin əsl alim və ziyalıları, görkəmli ictimai fəallar, siyasət adamları və mədəniyyət xadimləri, kreativ və təşəbbüskar idarəçilər, işğal altındakı torpaqlarımızın son qarışınadək azad etmək qüdrətində və bacarığında olan igid zabit və əsgərlər, nəhayət, milli iradəli əsl Azərbaycan vətəndaşları yetişəcəkdir".

Güruhbaşı öz aləmində dövlət rəsmisini onda ittiham etməyə cəhd göstərir ki, guya Əli Həsənov dolayısı ilə Qarabağ probleminin həllini daha 10-15 il sonraya atır və s. Amma adam unudur ki, dövlət doktrinasına görə Azərbaycanın işğal altında olan ərazilərinin hüdudları Qarabağla və ətraf rayonlarla kifayətlənmir, daha böyük bir ərazini əhatə edir. Yəni söhbət bir yox, bir neçə nəsilin də azad etmək borcu ola biləcək qədər ərazilərdən gedir. Dediyim budur ki, burada hiss olunur ki, güruhbaşı piyadadır və onun məntiqi tez tərksilah olur, həm də lamisənin hüdudları içəridir. Əli Kərimlinin icrasında.

Amma tutaq ki, Zakir Həsənovun müsahibəsində Müdafiə naziri 2018-ci ilin aprel döyüşlərini xatırladırsa və deyirsə ki, qarşı tərəf qaçdı yiyələrinin yanına, ki, qoymayın, bizi öldürdülər, o zaman söhbətin Ermənistan ordusunun rəhbərliyindən, ali baş komandanından getdiyi aydın ola-ola kələfin ucunu şimala sarımağa cəhd etmək rus dilində risk ola bilir və bax, bu zaman diqqətli olmaq lazımdır, əziz həmkarlar.

Mənimlə oynamağı məsləhət görmürəm. Müsahibəni mən götürmüşəm və əgər nəyisə, kimisə qabartmıramsa, deməli, buna ehtiyac yoxdur, mənim əziz həmkarlarım! Yaxşısı budur ki, Azərbaycandan kənarda oturub Azərbaycana diş qıcıyan, dövlətin ali çinlilərini ən murdar şəkildə təhqirlərə, həqarətlərə məruz qoyanlarla mübarizədə REAL-a istinad edin. Sizin köməyə burada ehtiyac var. Bu baxımdan biz Azərbaycanın bütün saytlarından, internet tv-ləri də daxil olmaqla kütləvi informasiya vasitələrinin rəhbərlərindən sosial şəbəkələrdə ünvanlı, nöqtəvi dəstək gözləyirik. Zakir Həsənovun kontekstdən çıxarılaraq acıqlı virtual ikiayaqlılıarın ağzına yağlı tikə kimi atılan müsahibə parçasını rahat buraxaq, ok? Qaragüruhla, söyüş və təhqir sürülərilə **SOSİAL ŞƏBƏKƏLƏRDƏ MÜCADİLƏ AÇMAQ LAZIMDIR**.

Bundan artıq açıq danışmaq niyyətində deyiləm. Çünki şərhlər yenə də atın ağzını daşlığa sala bilər və mənim də bu cıdırda çapar olma niyyətim yoxdur. Unudulmamalıdır ki, bir zamanlar şayiələri helikopterlərdən, vertolyotlardan səpirdilər ki, çaxnaşma yaysınlar. İndi bunu etmək on min dəfələrdən də asandır. Bir noutbook kifayətdir. Şayiələrin tirajlanması, səpələnməsi hazırdır. Buna görə də hər kəsdən diqqətli və vətəndaş olmağı xahiş edərdik. Azərbaycan vətəndaşlarına Danimarka televiziyasının tərcüməsini sonra verərik. Hələlik isə gəlin düşünək.Prezident bizi aparır qoyur Fleym Touers-in başına, biz isə qaçıb dayanırıq gecəqonduda. Niyə?

## ZƏNG GƏLDİ, POLİSDƏN

***Saat 21:00. Nizami RPİ Post-Patrul Xidməti Bölüyünün əməkdaşı, polis serjantı Sadiq İmanov təhkim olunduğu ərazidə xidmət aparır. Birdən gözü yerdəki pulqabına sataşır. Əyilib götürür.***

***Ətrafda kimsə yoxdur. Çox düşünmədən komandirinə məlumat verir və tezliklə onun özünün də iştirakı ilə pulqabı ərazi üzrə 25-ci Polis Şöbəsinə təhvil verilir.***

Şöbədə araşdırmalar başlanılır və məlum olur ki, içərisində pul və sənədlər olan cüzdan Bakı şəhər sakini Təranə Məmmədovaya məxsusdur.



Bu prosesin özü də maraqlıdır. Başqa sözlə, həmin xanımı tapmaq bir neçə saat vaxt aparıb. Nəhayət, vizit kartlarından birinin sahibi pulun və sənədlərini itirəni tanıdığını bildirir.

İnanmayacaqsınız, amma onu da axtarıb-tapmaq üçün düz, 6 saat getdi. Və gecənin yarısı vurulan zəng daha bir evə, bir ailəyə sevinc bəxş etdi...

Sonradan öyrəniləcək ki, pulqabının sahibi ticarət mərkəzindən çıxıb taksiyə əyləşərkən onu itirib. Bunu evə çatanda bilib və hadisə barədə "102" Zəng Mərkəzinə, eləcə də ərazi Polis Bölməsinə məlumat verib.

Səhər açılar-açılmaz Təranə xanım Nizami PRİ-yə gələrək idarənin rəisi, polis polkovniki Ədalət Abbasovla görüşüb və bütün şəxsi heyətə ailəsi adından minnətdarlığını bildirib.

***Yeri gəlmişkən, Sadiq İmanov 2012-ci ildən DİO-da xidmət edir. Bu müddətdə özünü nümunəvi polis əməkdaşı kimi göstərib. Kollektivdə hörmət qazanıb. Bunu da iş yoldaşları deyir.***

*Çingiz Şıxverdiyev*

## İNAM VARSA...

**Xəzər RPİ-nin Yetkinlik yaşına çatmayanlarla profilaktik işin təşkili bölməsinin inspektoru, polis baş leytenantı Xəyalə Həsənova 2017-ci ildən daxili işlər orqanlarındadır. Xidmətə elə bu vəzifədən başlayıb.** Qısa müddətdə gənc polis zabiti həm faydalı təcrübə toplaya bilib, həm də ünsiyyətdə olduğu insanların etimadını qazanıb. Təbii ki, təcrübəli həmkarlarının zəhməti bu işdə az rol oynamayıb.



Peşəsinə həssaslıqla və məsuliyyətlə yanaşır. Narkomaniya, dini ekstremizm, erkən nikah haqqında bu fəsadların təsirinə daha çox məruz qalan yeniyetmələrlə profilaktik iş aparır, onları inandırmağa çalışır.

Xəyalə Həsənova bu dəfə Xəzər rayonundakı 181 saylı orta məktəbin yuxarı sinif şagirdlərinin qonağıdır.

*Ü.Muradov,*
*T.Əlizadə*

# BİR KABUS DOLAŞIR,
# BİZDƏN UZAQDA, BİZƏ YAXINDA ...

**Azərbaycan Polisinin qazanılan hər bir uğurda payı var. Ölkəmizdə sabitliyin qorunmasında və cinayətkarlıqla mübarizədə canını belə əsirgəməyən polis gələcəyimizi də düşünərək paytaxtda və yerlərdə maarifləndirmə işini daha da canlandırıb.**

Suraxanı rayonunda baş tutdu növbəti belə tədbir. Əsaslı şəkildə yenidən qurulan 208 və 101 nömrəli



orta məktəblərin yeni dərs ilinə açılışından sonra RPİ-nin təşkilatçılığı ilə "Narkomaniya bəşəriyyət üçün təhlükədir" mövzusunda gerçəkləşdirilən görüş hələ uzun zaman məktəblilərin hafizəsində qalacaq. Qalacaq ki, hər dəfə xoşagəlməz halla rastlaşanda onlara yardımçı olsun...

Əvvəlcə çıxış edən məktəbin direktorları - Məlahət Əsədova və Səidə Məmmədova şagirdlərin vətənpərvərlik ruhunda böyümələri, onların elmə-biliyə marağının artırılması məqsədilə həyata keçirilən bu cür tədbirlərə görə Daxili İşlər Nazirliyinin rəhbərliyinə təşəkkürlərini bildirdilər, qonaqları şagird və müəllim heyətinə təqdim etdilər.



**Rayon Polis İdarəsinin rəisi, polis polkovniki Namiq Həsənov** dedi ki, narkomaniya atrıq məktəblilər arasına da yol tapıb. Narkotik qəbul edənlərin işi, necə deyərlər, burda daha rahat olur. Yeniyetmələrin kriminala meyilləri çox təhlükəlidir. Xasiyyət həssaslığı, mənəvi özünənəzarətin tam formalaşmaması onların cinayət əməllərinə tabe olmasını asanlaşdırır. Müşahidələrə görə, narkotik eyforiyası vəziyyətində olan yeniyetmənin törətdiyi cinayət çox zaman motivsiz, mənasız xarakter daşıyır. Həm də bu tələyə iradəsi zəif olanlar, problemli ailələrdən gələnlər, xaraktercə "çətin" uşaqlar daha tez düşürlər. Müəllim və şagirdlərin köməyi bu zaman zəruridir. Sağlam həyat tərzi, idman isə ən səmərəli vasitədir. R.Həsənov düzgün olaraq qeyd etdi ki, yaxşı oxuyan, nizam-intizamlı şagird heç vaxt bu yola düşməz.




"Dövrümüzün aktual, bəşəriyyətin ən böyük bəlalarından, ağrılı problemlərindən olan "Ağ ölüm" və onun fəsadları, ona qarşı mübarizə yolları ilə bağlı əhali, xüsusən də gənc nəsil arasında inandırıcı təbliğatın aparılması qarşımızda duran əsas missiyadır".

Bunu deyən **Narkotiklərlə mübarizə bölməsinin rəisi, polis mayoru Səməd Şıxlı** əlavə etdi ki, narkomanlıq narkotiklərin qanunsuz dövriyyəsinin coğrafiyası kimi sərhəd tanımır. O, dilindən, dinindən, irqindən, sosial vəziyyətindən asılı olmayaraq, hamı üçün eyni dərəcədə də təhlükədir, bəşəri fəlakətdir.

İdarənin **Yetkinlik yaşına çatmayanlarla profilaktiki işin təşkili bölməsinin rəisi, polis polkovnik-leytenantı Namiq Məmmədov** bu fikirlərə qoşularaq diqqətə çatdırdı ki, narkomaniya ilə mübarizədə yalnız valideyn-məktəb əməkdaşlığı, polisin dəstəyi, köməyi ilə real nəticə verə bilər.

Sonra asayiş keşikçiləri tərəfindən şagirdləri maraqlandıran suallar cavablandırıldı və onlara RPİ-nin təşəbbüsü ilə hazırlanan maarifləndirici bukletlər paylandı.

Yeri gəlmişkən, idman, fiziki hazırlıq və sağlamlıq bizim özümüz üçün də çox vacibdir. Diqqət və qayğı bu sahədə öz konkret nəticələrini göstərir.

***Suraxanıya getmişkən, bu məsələ ilə də maraqlandım və gəlişim yerinə düşdü. Öyrəndim ki, rayon ərazisindəki idman komplekslərinin birində***



***Post-Patrul Bölüyünün əməkdaşları komandir müavini, polis leytenantı Qabil Ballayevin rəhbərliyilə fiziki hazırlıq günlərindən başqa, xidmətdən sonra həftədə daha dörd dəfə məşqlər keçirlər...***

*Ruslan Vəliyev,*
*polis leytenantı*


# "XƏZRİ" sizi gözləyir!




**Qeyd:** 1. "Azərbaycan Respublikası daxili işlər orqanlarında xidmətkeçmə haqqında" Əsasnamənin 99-cu bəndinə əsasən, daxili işlər orqanları əməkdaşlarına hər il yollayışın qiymətinin 75 faizi miqdarında, ailə üzvlərinə isə 50 faizi miqdarında imtiyaz verilir. Yollayışlar 14 gün müddətinə ildə bir dəfə verilir və yalnız standart otaqlara aiddir. Bu imtiyaz iki bərabər hissəyə (hər biri 7 gün müddətində) bölünmək şərtilə verilə bilər.

2. Daxili Qoşunların hərbi qulluqçuları (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) qanunvericiliklə müəyyən edilmiş əsaslarla Mərkəzə yollayış almaq hüququna malikdirlər.

3. Bir günlük xərc tək polis əməkdaşı üçün 22,50 manat (iki nəfərlik nömrəni tək tutduqda 37,50 manat), standart 2 nəfərlik otaqda özü və 1 nəfər ailə üzvü üçün 67,50 manat, özü və 6-12 yaşadək bir uşaq (dolu otaqda əlavə yer verilmək şərti ilə) üçün 62,50 manat, iki nəfər ailə üzvü üçün (özü olmadan) 90 manat və onlarla birgə 6-12 yaşadək uşağa əlavə yer verildikdə 115 manat təşkil edir.

4. 6 yaşadək uşaqların qalması ödənişsizdir.

5. Qiymətlərə pulsuz 3 dəfə yemək, Wi-Fi şəbəkəsi, SPA girişi (qapalı hovuz, hamam, sauna), çimərlikdən, açıq hovuzdan, akvaparkdan, trenajorlardan, mini-futbol, voleybol və uşaq meydançalarından istifadə daxildir. Digər bütün xidmətlər ödənişlidir.

**Daxili İşlər Nazirliyinin "Xəzri" İstirahət və Sağlamlıq Mərkəzində standart otaq üçün bir günlük xərcin 2-ci mövsüm üzrə 17 sentyabr 2019-cu il - 31 may 2020-ci il tarixlərə qiymətləri**
**(daxili işlər orqanlarının əməkdaşı üçün 14 gün müddətinə olan yollayışda nəzərdə tutulmuş güzəştlərlə)**

**Ünvan: Bakı şəhəri, Zuğulba qəsəbəsi, Rasim İmanov küçəsi, 40. Mərkəzə "Koroğlu" metro stansiyasından 171 nömrəli avtobusla gəlmək olar.**
**Telefon: (+99412) 554-47-60;**
**Mobil telefon: (+99450) 291-15-51; (+99455) 291-15-51**
**Faks: (+99412) 453-63-33;**
**Poçt indeksi: AZ1090**
**E-poçt: info@khazribaku.az**
**Veb-sayt: www.khazri.mia.gov.az**

| 17 sentyabr 2019-cu il - 31 may 2020-ci il (2 nəfərlik standart otağın güzəştsiz qiyməti : iki nəfər qaldıqda 180 manat, bir nəfər tək qaldıqda 150 manat) | | |
|---|---|---|
| | 2 nəfərlik nömrədə iki istirahətçi qaldıqda 1 nəfər üçün | 2 nəfərlik nömrədə bir istirahətçi tək qaldıqda |
| Yollayışla gələn polis əməkdaşı (75% güzəştlə) | 22,50 manat | 37,50 manat |
| Onun ailə üzvü (50% güzəştlə) | 45,00 manat | 75,00 manat |
| Polis əməkdaşı ilə birgə 6-12 yaşadək hər bir uşağa yalnız dolu otaqda əlavə yer verildikdə (50% güzəştlə) | 25,00 manat | |
| Kənar şəxslər (güzəştsiz qiymət) | 90,00 manat | 150,00 manat |
| Valideyni ilə birgə 6-12 yaşadək hər bir uşağa yalnız dolu otaqda əlavə yer verildikdə (güzəştsiz qiymət) | 50,00 manat | |
| 12 yaşdan yuxarı şəxsə yalnız dolu otaqda əlavə yer verildikdə (güzəştsiz qiymət) | 70,00 manat | |


# DÜNYAYA PƏNCƏRƏ

Gürcüstan Daxili İşlər Nazirliyi Mərkəzi Cinayət Polis İdarəsinin əməkdaşlarının Baş Prokurorluq, Avropa Polis Təşkilatı, ABŞ və Avstraliya hüquq-mühafizə orqanları ilə həyata keçirdiyi ortaq əməliyyat nəticəsində yetkinlik yaşına çatmayan şəxslərin pornoqrafik materiallarının hazırlanması ilə məşğul olan 11 nəfərlik cinayətkar dəstənin üzvləri saxlanılıb.

Saxlanılanlar arasında Gürcüstanla yanaşı ABŞ və Avstraliya vətəndaşları da var.

Cinayətkar dəstənin əcnəbi üzvlərinin Tbilisidə kirayə qaldıqları mənzillərinə gizli kameralar yerləşdirərək azyaşlı qızların fotoşəkillərini çəkdiyi və bu şəkilləri xarici ölkələrdə satışa çıxardığı bildirilib. Cinayət fəaliyyətində qurban qismində 14 yaşdan aşağı qızların olduğu bildirilib. Cinayət qrupunun təşkilatçıların foto çəkmək müqabilində yeniyetmələrin valideynlərinə 500 - 3000 lari ödəniş etdiyi qeyd olunub.

Bundan başqa, polis ABŞ vətəndaşından Tbilisidə müxtəlif ticarət mərkəzlərində yerləşən terminallardan əldə edilmiş kriptovalyutalar da ələ keçirib.

*****

***Sentyabrın 1-də Sürix polisi "Facebook" səhifəsində foto paylaşıb. İki polis əməkdaşının avtomobil və ləvazimatları ilə düzəltdikləri "tetris" fotoları dünyanın fərqli nöqtələrində yayılan yeni çılğın trendə çevrilib.***

***"Hər bazar günü "Facebook" və "Instagram"da həyəcanverici, xoş və gülməli bir fotomuzu paylaşırdıq. Son fotoda bir polis maşını da qoyduq və yanına ləvazimatları düzdük. Sonra bunu dron vasitəsilə yayımladıq", - Sürix polisinin Mətbuat Xidmətinin rəhbəri deyib. O qeyd edib ki, başqa dövlətlərin polis və yanğından mühafizə idarələri ilə yanaşı, özəl şirkətlər də trendə qoşulublar.***

*****

İstanbulun Kabataş bölgəsindəki binalardan birinin fasadına 440 qadın ayaqqabısı düzülüb. Bu ayaqqabılar 2018-ci ildə kişilər tərəfindən öldürülən qadınların sayını ifadə edir. 260 kvadratmetrlik ərazidə 2 divara düzülən ayaqqabılar hər kəsin diqqətini cəlb edib.

Qrafik-dizayner tərəfindən hazırlanan layihənin bütün istanbullulara tanıdılacağı, kişilərin zorakılığı nəticəsində dünyasını dəyişən qadınların adının xatırlanması məqsədilə ərsəyə gətirirldiyi bildirilib. Açılış gələn həftə reallaşdırılacaq.

*****

***Latviyanın Gömrük Xidməti dərman preparatlarının hazırlanmasında istifadə olunan 3 tondan çox narkotik vasitənin qanunsuz saxlandığı yerləri aşkarlayıb. Keçirilən yoxlamalar zamanı Riqa və Salaspils şəhərlərindəki bir neçə evdə və anbarda ümumi çəkisi 3,3 ton olan amfetamin və metamfetamin maddələri tapılıb. Həmin maddələrin qara bazarda 9 milyon avro dəyəri olduğu bildirilir.***

***Bu hadisə Latviya tarixində narkotiklərə qarşı ən böyük əməliyyatlardan biridir. Yanvarda ölkədəki fermaların birində Ekvadordan gətirilmiş 2 tona yaxın kokain, aşkarlanmışdı.***

*C.Natiq*

# Sentyabrın 18-dən 24-dək olan müddət ərzində

- Respublikanın daxili işlər orqanları tərəfindən ötən həftə ərzində 165 cinayətin üstü "isti izlər"lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 77 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 148, o cümlədən mülki hüquqi öhdəliklərin icrasından yayındığına görə 6, borclu şəxs qismində axtarışda olan 48 nəfər saxlanılaraq aidiyyatı üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 14 ağır yol-nəqliyyat hadisəsi baş vermişdir ki, nəticədə 15 nəfər ölmüş, 8 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 92 fakt müəyyən edilmişdir.

Baş Cinayət Axtarışı İdarəsinin rəisi Arzu Daşdəmirov və şəxsi heyəti Daxili Təhqiqatlar İdarəsinin rəis müavini Azər Məmmədova əmisi

**SULTAN MƏMMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Baş İnformasiya Kommunikasiya İdarəsinin rəisi Dilqəm Aslanov və şəxsi heyəti Azər Məmmədova əmisi

**SULTAN MƏMMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN İdman Cəmiyyətinin sədri Zemfira Meftaxetdinova və şəxsi heyəti Azər Məmmədova əmisi

**SULTAN MƏMMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN Maliyyə-Plan İdarəsinin rəisi Ramil Baloğlanov və şəxsi heyəti Azər Məmmədova əmisi

**SULTAN MƏMMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Gəncə ŞBPİ-nin rəisi Əkbər İsmayılov və şəxsi heyəti Azər Məmmədova əmisi

**SULTAN MƏMMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Nizami RPİ-nin rəisi Ədalət Abbasov və şəxsi heyəti Azər Məmmədova əmisi

**SULTAN MƏMMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Nərimanov RPİ-nin rəisi Vaqif Müslümov və şəxsi heyəti Azər Məmmədova əmisi

**SULTAN MƏMMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Xətai RPİ-nin rəisi İlqar Məmmədov və şəxsi heyəti Azər Məmmədova əmisi

**SULTAN MƏMMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Nəsimi RPİ-nin rəisi Mirnemət Mirbabayev və şəxsi heyəti Azər Məmmədova əmisi

**SULTAN MƏMMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Lənkəran ŞRPŞ-nin rəisi İslam Hümbətov və şəxsi heyəti Azər Məmmədova əmisi

**SULTAN MƏMMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Bərdə RPŞ-nin rəisi Muradəli Babayev və şəxsi heyəti Azər Məmmədova əmisi

**SULTAN MƏMMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Şəki ŞRPŞ-nin rəisi Azər Muradov və şəxsi heyəti Azər Məmmədova əmisi

**SULTAN MƏMMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Şəmkir RPŞ-nin rəisi Elnur Həsənov və şəxsi heyəti Azər Məmmədova əmisi

**SULTAN MƏMMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Yevlax RPŞ-nin rəisi Elnur Mehdiyev və şəxsi heyəti Azər Məmmədova əmisi

**SULTAN MƏMMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Beyləqan RPŞ-nin rəisi Rəşid Piriyev və şəxsi heyəti Azər Məmmədova əmisi

**SULTAN MƏMMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Ağsu RPŞ-nin rəisi Fəxrəddin Abbasov və şəxsi heyəti Azər Məmmədova əmisi

**SULTAN MƏMMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Astara RPŞ-nin rəisi Azər Cahangirov və şəxsi heyəti Azər Məmmədova əmisi

**SULTAN MƏMMƏDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**ALLAH RƏHMƏT ELƏSİN!**

MÜBARİZ KEŞİKDƏ
qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Mübariz keşikdə"yə istinad olunmalıdır.
Redaktor
CAVİD XASPOLADOV
Qeydiyyat № 155. İndeks: 66993
Sayı 9.724
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 18:30